# Əməkdar artist Cabir İmanov dəfn olundu



Dünən sentyabrın 29-da dünyasını dəyişmiş Əməkdar artist Cabir İmanovla vida mərasimi keçirilib. Dövlət Təhlükəsizlik Xidmətinin Mədəniyyət Mərkəzində baş tutan mərasimdə mərhumun ailə üzvləri, sənət dostları, dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva vida mərasiminə əklil göndəriblər.

APA xəbər verir ki, Cabir İmanovun qardaşı, Əməkdar artist Tahir İmanov qardaşının vida mərasimində iştirak edən hər kəsə minnətdarlığını bildirib, mərhumla bağlı xatirələrini bölüşüb: "O, çox dəyərli bir ömür yaşadı, zəngin, qayğısız, Şuşalı, Şuşasız və yenidən Şuşalı günlərimizin şahidi oldu. Bu dövlətə və dövlətçiliyə xidmət etmək onun üçün şərəf idi. Bəzi qüvvələr Cabiri başqa cür göstərmək istəsələr də, Uca Allah kimi ucaltsa, ona heç kim mane ola bilməz. O, nümunəvi bir ata, övlad və insan idi. Mən ondan iki yaş böyükəm, amma ondan çox şey öyrəndim".

"Cabir İmanov təkcə yaradıcılığı ilə deyil, həm də vətənə bağlılığı, səmimiyyəti və insanlığı ilə yadda qalacaq. O, sənətinə verdiyi töhfələrlə, insanlara bəxş etdiyi sevgi və ilhamla öz yolunu işıqlandırdı. Onun hər sözü, hər kəlməsi daxildən gəlirdi, təmənnasız idi". Bu fikirləri AZƏRTAC-a müsahibəsində mərasimdə iştirak edən Xalq artisti Mənsum İbrahimov deyib.

"Cabir İmanov vətənini dərindən sevən bir insan idi. Torpaqlarımız azad olunanda o, böyük bir sevinc yaşamış, Qarabağla, Şuşa ilə bağlı arzularını həvəs və fərəhlə dilə gətirmişdi. Deyirdi ki, bəlkə bir layihə həyata keçirək - onun bəstələdiyi əsərlər var idi, onları muğamla sintez edib Qarabağ haqqında xüsusi bir əsər yaradaq. Mən də cavab vermişdim ki, böyük məmnuniyyətlə edək, bir vaxt tapıb görüşərik və həyata keçirərik. Təəssüf ki, qismət olmadı... Allahın hökmü belə imiş. Allah rəhmət eləsin", - deyə Mənsum İbrahimov qeyd edib.

"Mən Cabir İmanovun yaradıcılığına yaxından şahid olmuşam. Onun sənətinə, fədakarlığına və yaratdığı dəyərlərə həmişə böyük qürurla yanaşmışam".

Bunu isə AZƏRTAC-a müsahibəsində Xalq artisti Hacı İsmayılov deyib.

O bildirib ki, Cabir İmanov təkcə yaradıcılığı ilə deyil, həm də səmimiyyəti ilə yadda qalacaq. "Tez-tez görüşər, məni konsertlərinə dəvət edərdi. O görüşlər mənim üçün həmişə dəyərli olub, son görüşümüz isə unudulmaz bir xatirə oldu", - deyə Hacı İsmayılov qeyd edib.

Vida mərsimindən sonra Əməkdar artist Cabir İmanov "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

Allah rəhmət eləsin!

525-ci qəzet. - 2025.- 1 oktyabr (№177).- S.9.